Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017



**SÜLEYMAN HACIYEV**
*(5.3.1920, Şuşa – 3.10.2000, Sumqayıt). Teatr rəssamı və memar.*

Süleyman Həbib bəy oğlu Hacıyev məşhur aktrisa Barat Şəkinskayanın qardaşıdır. Ailəsi 1920-ci illərin əvvəllərində Gəncəyə köçüb. Orta məktəbi Gəncədə bitirib. Gəncə Dövlət Dram Teatrında yaradıcılıq fəaliyyətinə 1939-cu ildə başlayıb. Burada dekorçu rəssam, quruluşçu rəssam və baş rəssam (1945 – 1954) işləyib. Azərbaycan Dövlət Politexnik İnstitutunun memarlıq fakültəsində təhsil alıb (1953 – 1959). 1958-ci ildən Sumqayıt Layihə İnstitutunda maket şöbəsinin müdiri, 1962 – 1968-ci illərdə Sumqayıt şəhərinin baş memarı işləyib. Müxtəlif janrlı tamaşalara verdiyi səhnə tərtibatları monumentallığa meyli və realizm prinsipləri ilə səciyyəvidir. Realist teatr estetikasına üstünlük verib. Geyim eskizləri tarixi-etnoqrafik dəqiqliyi və kolorit əlvanlığı ilə yadda qalıb.

*Gəncə teatrında tərtibat verdiyi əsas tamaşalar:* «Xırs quldurbasan» (Mirzə Fətəli Axundzadə), «Ər və arvad» (Üzeyir bəy Hacıbəyli), «Əlli yaşında cavan» (Zülfüqar bəy Hacıbəyli), «Hacı Fərəc» və «Hacı Qəmbər» (Nəcəf bəy Vəzirov), «İntizar» (Mehdi Hüseyn və İlyas Əfəndiyev), «Almaz», «Oqtay Eloğlu», «Solğun çiçəklər», «Sevil» və «Aydın» (Cəfər Cabbarlı), «Qatır Məmməd» və «İntiqam» (Zeynal Xəlil), «Məhəbbət» (Mirzə İbrahimov), «Eşq və intiqam» (Süleyman Sani Axundov), «Toy», «Aydınlıq», «Nişanlı qız» və «Aşnalar» (Sabit Rəhman), «Dağılan tifaq» (Əbdürrəhim bəy Haqverdiyev), «İki ağanın bir nökəri» (Karlo Qoldoni), «Özgə uşağı» (Vasili Şkvarkin), «Qaçaq Nəbi» (Süleyman Rüstəm), «Otello» (Uilyam Şekspir), «Evlənmə» (Nikolay Qoqol), «Fərhad və Şirin» (Səməd Vurğun), «Şeyx Sənan» (Hüseyn Cavid), «Ölülər» (Cəlil Məmmədquluzadə), «Bir gəncin manifesti» (Ağəli Dadaşov. Mir Cəlalın eyniadlı əsəri əsasında), «Nizami» (Mehdi Hüseyn), «Jorj Danden» və «Mıqqı Kərim» (Jan Batist Molyer), «Fövqəladə qanun» (Lev Şeynin və Tur qardaşları), «Qız qalası» (Rza Şahvələd), «Xeyir və Şər» (İslam Səfərli), «O tayda» (Anatoli Boryanov), «Bahar suları» (İlyas Əfəndiyev), «İkinci cəbhə arxasında» (Vadim Sobko), «Düşmənlər içində» (Novruz Gəncəli), «Xeyirxah adamlar» (Georgi Mdivani), «Məzəli hadisə» (Karlo Qoldoni), «Xərçənglər» (Sergey Mixalkov).